# «Kitabsız bir ömrün nə mənası var?»




İnanc Hüseynlinin “Kitabsız bir ömrün nə mənası var?” layihəsi Azərbaycan Respublikası Prezidenti yanında Gənclər Fondunun 8-ci qrantının qaliblərindən biri olmuşdur. Layihə üzrə təlimlərin Oğuz, Qəbələ, Şəki şəhərlərində keçirilməsi nəzərdə tutulmuşdur. Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun maliyyə dəstəyi ilə keçirilən bu tədbirlərdən biri də Qəbələ şəhər 4 nömrəli tam orta məktəbində təşkil olunmuşdur.



Layihənin əsas məqsədi gənclərdə bədii və elmi ədəbiyyata, kitaba, kitabxanaya marağın artırılması, gənclərin asudə vaxtının səmərəli təşkilinin təmin edilməsi, müxtəlif tədbirlərin keçirilməsi ilə onların zərərli vərdişlərdən, ziyanlı məşğuliyyətlərdən uzaqlaşmasına nail olunması, gənclərdə müstəqil dövlətçilik ənənələrinə hörmət və sədaqət hissinin gücləndirilməsi, qəhrəmanlıq nümunələrinin gənclər arasında təbliğ edilməsi, gənclərdə soykökə, keçmişə, adət-ənənələrə, dövlətçilik ənənələrinə bağlılığın inkişaf etdirilməsi, gənclərin Azərbaycanın milli-mədəni irsi və tarixi haqqında məlumatlandırılması, onların daha çox kitabla tanış olmasına və bəhrələnməsinə şərait yaratmaqdır.

Layihənin rəhbəri İnanc Hüseynli təlimi maksimal dərəcədə interaktiv şəkildə aparmağa çalışmışdır. Qarşılıqlı diskussiya qaydasında keçirilmiş təlim zamanı kitabların bizə, bizim həyatımıza qatdığı dəyərlər, üstünlüklər barədə müzakirə aparılmışdır. İştirakçılar təşkil olunmuş kitab sərgisi ilə tanış olmuşlar.

Tədbirdə kitab oxumağın faydaları haqqında danışılmış, iştirakçılara kitabla bağlı maraqlı faktlar çatdırılmışdır. Hazırlanmış video-çarxlar və slaydlar təlim iştirakçıları tərəfindən maraqla qarşılanmışdır. Bundan başqa iştirakçılar “Ən son oxuduğunuz kitab” adlı anketi doldurmuşlar. Təlim müddətində gəncləri maraqlandıran suallar cavablandırılmış, treyninq iştirakçılarına tədbir ilə bağlı bukletlər paylanılmışdır.

**Rais RƏŞİDOV.**
**S. Umuyev.**

# Müstəqilliyə həsr olunmuş inşa yazı müsabiqəsi

Rayon gənclər və idman idarəsinin təşkilatçılığı ilə tam orta məktəblərin IX-XI sinif şagirdləri arasında 18 oktyabr–Dövlət Müstəqilliyinin bərpasının 25 illiyinə həsr edilmiş “Müstəqilliyimiz əbədidir, dönməzdir və sarsılmazdır” mövzusunda inşa yazı müsabiqəsi keçirilmişdir. Müsabiqəyə 40-dək məktəbli qatılmışdır. Oktyabın 18-də rayon İcra hakimiyyətinin akt zalında müsabiqənin yekunu və qaliblərin mükafatlanma mərasimi keçirilmişdir.



Tədbiri giriş sözü ilə açan gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov məlumat vermişdir ki, müsabiqənin keçirilməsində əsas məqsəd gənclərin vətənpərvərlik, azərbaycançılıq və dövlətçilik prinsipləri əsasında tərbiyə olunmasından ibarət idi.

Tədbirdə rayon təhsil şöbəsi metodkabinetinin rəhbəri Arifə Bayramova çıxış edərək müsabiqənin keçirilməsinin gənc nəslin vətənpərvərlik tərbiyəsində mühüm rol oynadığını bildirmiş və qalibləri təbrik etmişdir.

Müsabiqənin əsasnaməsinə uyğun olaraq 1 nəfər I yerə, 2 nəfər II yerə, 3 nəfər III yerə layiq görülmüşdür. Yekunda Nohurqışlaq kənd tam orta məktəbin şagirdi Gülçöhrə Abdurahmanlı I yerə, Zarağan kənd 2 nömrəli tam orta məktəbin şagirdi Məcburə Mustafayeva və Zalam kənd tam orta məktəbin şagirdi Almaz Eyyubova II yerə, Qəmərvan kənd tam orta məktəbin şagirdi Siyarə Rüstəmova, Qəbələ şəhər 3 nömrəli tam orta məktəbin şagirdi Mədinə Rəhimova və Soltannuxa kənd tam orta məktəbin şagirdi Fidan Əsədova isə III yerə layiq görülmüşlər.

Qaliblər rayon gənclər və idman idarəsinin diplom və xatirə hədiyyələri ilə mükafatlandırılmışlar.

**Mübariz Ağayev, gənclər və idman idarəsinin aparıcı məsləhətçisi.**
**S. Umuyev.**

# Sənətkarlıq evində tədbir

Vəndam qəsəbə sənətkarlıq evində dövlət müstəqilliyimizin bərpasının 25-ci ildönümü ilə əlaqədar tədbir keçirilmişdir. Tədbirdə qəsəbə uşaq bağçası və həkim məntəqəsinin işçiləri, ictimaiyyətinin nümayəndələri iştirak edirdilər. Tədbiri giriş sözü ilə sənətkarlıq evinin direktoru Azər Azayev açmış, dövlət müstəqilliyimizin bərpasının 25 illiyi barədə məruzə etmişdir.

Sənətkarlıq evinin işçiləri Sevda Nadirova, Ağabala Qarayev, Elşən Salehov və başqaları mövzu ilə əlaqədar çıxış etmişlər. Qəsəbə uşaq bağçasının balaca fidanları Vətənə, ölkəmizin ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərimizə həsr edilmiş şeirlər söyləmişlər.

Sənətkarlıq evi bədii özfəaliyyət kollektivinin üzvləri tərəfindən ifa edilən musiqi nömrələri iştirakçıların alqışları ilə müşayiət olunmuşdur.

**Elçin Azəroğlu, Vəndam qəsəbə sakini.**

# Zəhmət nəticəsiz qalmır

M. V. Lomonosov adına Moskva Dövlət Universiteti fizika fakültəsinin dekanı, fakültə elmi şurasının sədri, professor N. N. Sısoyevin və elmi şuranın katibi professor V. A. Karabayevin imzası ilə Qəbələ şəhər 3 nömrəli tam orta məktəbin fizika müəllimi Qərib Hüseynova şəhadətnamə göndərilmişdir.

Şəhadətnamədə göstərilir ki, Qərib müəllimin fizikadan dərs dediyi məktəbin məzunları M. V. Lomonosa adına Moskva Dövlət Universitetinin Bakı filialının fizika fakültəsinə qəbul imtahanları zamanı müntəzəm olaraq yüksək bal toplayırlar. Qərib müəllimin yetirmələri adı yuxarıda qeyd olunan üniversitetdə fizika və onunla əlaqəli fənlərdən yüksək bilik nümayiş etdirirlər. Bütün bunlara görə Qərib müəllim M. V. Lomonosov adına Moskva Dövlət Universitetinin fizika fakültəsinin rəhbərliyi tərəfindən şəhadətnaməyə layiq görülmüşdür. Əlavə olaraq universitetin alimləri özlərinin müəllifi olduqları ümumtəhsil məktəblərinin X və XI sinifləri üçün çap etdirdikləri fizika dərsliklərini də Qərib müəllimə hədiyyə olaraq göndərmişlər.

**Qüdrət CƏMALƏDDİNOĞLU.**
***«Qəbələ».***

# «Dəyirmi masa» keçirilmişdir

Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyində «Xocavəndsiz ötən illər» adlı «dəyirmi masa» təşkil olunmuşdur.

Tədbir iştirakçılarına 24 il əvvəl erməni qəsbkarları tərəfindən Xocavəndin işğalı zamanı orada olan bütün maddi mədəniyyət abidələrinin dağıdılması, talan edilməsi və insanların əsir götürülərək onlara ağlagəlməz işgəncələrin verilməsi barədə ətraflı məlumat verilmişdir.

Tədbirdə Xocavəndin işğalı zamanı həlak olmuş insanların xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

**İlhamə SEYİDOVA, muzeyin əməkdaşı.**

# Yeniyetmələr arasında sərbəst güləş üzrə zona yarışı

Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə 17-20 oktyabr 2016-cı il tarixdə idman məktəblərinin VIII Respublika Oyunlarının proqramına daxil olan sərbəst güləş üzrə 2004-2005-ci il təvəllüdlü yeniyetmələr arasında zona yarışları keçirilmişdir.



Yarışın keçirilməsində məqsəd respublikada sərbəst güləş idman növünün inkişafına dəstək verilməsi, yeniyetmələrdə sağlam həyat tərzinin aşılanması, respublikanın bölgələrində bədən tərbiyəsi və idmanın daha da inkişaf etdirilməsi və təbliği, həmçinin yeniyetmələrin idman ustalıqlarının artırılması, yığma komandalara namizədlərin hazırlanması və olimpiya idman komplekslərindən səmərəli istifadə olunmasından ibarətdir.

Yarışda UGİM, cəmiyyət, klub və olimpiya idman komplekslərinin komandaları iştirak etmişlər. Şəxsi xarakter daşıyan yarışın ölkə birinciliyi zona mərhələsində respublikanın 17 şəhər və rayonundan 150-dək güləşçi 16 çəki dərəcəsində mübarizə aparmışdır.

Yekunda hər çəki dərəcəsində I, II və III yerləri tutmuş güləşçilər Balakən rayonunda keçiriləcək final mərhələsinə lisenziya qazanmışlar. Yarışda Qəbələ rayonunu təmsil edən idmançılardan Əmrah Şəfiyev, Arzu Veysəlov, Rəvan Əliyarov və İsmayıl Əliyarov müvafiq yerləri tutaraq finala vəsiqə əldə etmişlər.

İdmançılarımıza uğurlar arzulayırıq.

**M. SƏFƏRÇİNOV, gənclər və idman idarəsinin baş məsləhətçisi.**